# GÜNEY AZƏRBAYCANDA İRAN SEÇKİLƏRİ

Mart ayının birində (2024) İran İslam Respublikasında parlament seçkiləri keçirildi. Uzun müddətdir ki, öz xalqına edam hökmləri ilə göz dağı verən bir dövlətin parlament seçkilərində iştirak etməmək, seçkiləri boykot etmək və bununla da mərkəzi hakimiyyətə öz protest mesajını vermək istəyən müxalifət əslində xalqın ümumi rəyinə uyğun olaraq şüarlar verirdi. Xalq da "Azadlıq, Ədalət, Milli Hökumət" şüarları ilə öz fikrini elan etmiş və münasibətini bildirmişdi. Əslində xalqın mövqeyi məlum idi. Bəs nə baş verdi?

Rəsmi İran məqamlarının verdiyi məlumatlara görə ölkə üzrə seçicilərin 41 faizi seçkilərdə iştirak edib. Ən çox seçicisi olan paytaxt Tehran şəhəri üzrə bu rəqəm 20 faiz təşkil edib. Bu nəyin göstəricisidir? Əgər 40 faiz 60 olsaydı, nə isə dəyişəcəkdimi? Edamlar azalacaqdımı? Qadınların azadlığı artacaqdımı? Əlbəttə ki, yox. Xamineyi seçki qabağı gənclərlə görüşdə açıq-aşkar elan etdi ki, sizin rəyinizdən heç nə asılı deyil, sadəcə olaraq seçki günü gəlin və münasibətinizi bildirin.

Güney Azərbaycanda əhalinin səyi, milli fəalların canfəşanlığı, demokratik qüvvələrin biri-birini xəyanətdə ittiham etməsi, yerli elitanın öz yaxınlarını məclis nümayəndəsi qismində görmək üçün göstərdikləri lobbiçilik və manevrlər fonunda isə "fələk çaldığını çaldı...". Çıxılmaz vəziyyəti anlayaraq bir qrup milli fəal özü-özünü aldadaraq seçkini "boykot" etməklə iran rəhbərliyinə siqnallar ötürmək və bu protestin müqabilində güzəştlər almaq ümidində oldular. Onlar İranın molla rejimini sanki yaxşı tanımamışdılar...

İran İslam Respublikasının siyasi quruluşu və bu quruluş daxilində demokratik seçkilər, milli maraqlar, dünyəvi dəyərlər haqqında danışmağın nə qədər mənasız olduğunu müzakirə etməmişdən öncə milli fəalların sonucu olmayacaq, mənasız umidləri haqqında bir neçə kəlmə demək lazımdır.

Son üç ildə milli-demokratik hərəkatda bir-birini ittiham edən, sıralarında xain axtaran gənc və mübariz insanlarımızın enerjisi hədərə xərcləndi, zindanlarda zülm çəkən övladlarımızın arzuları ilə manipulyasiya edildi və beləliklə də milli-mədəni mühitdə xaos yaratmağa nail oldular. Belə ki, öz sıralarında xain axtaranlar ətraflarına baxsaydılar, təbii ki, xainləri görərdilər.

Bu müddət ərzində orta məktəblərdə azərbaycanlı uşaqlara zor tətbiq edən məktəb direktorları, milli şüarlarla maskalanmış ruhanilər, aşıq papağını başına qoyub İran məclisində çıxış edən təlxəklər, “Urmiya əldən getdi” deyənlər (məgər İran məclisi Urmiyanın suyunu bərpa edəcək?) xaindirlər və bu siyahını artırmaq da olar. Bu siyahını artırarıqsa, adları bir-bir sadalayarıqsa, o zaman nə baş verəcək? O zaman xainlər utanacaqlar, ya arvadını Azərbaycan səfirliyində axtaranların sayı azalacaq? Görəsən, bu gün Azərbaycan səfirliyində “arvadını axtarmaq” üçün bəsicilərdən sifariş olunarsa, nə qədər könüllü tapılar? Sizcə, Güney Azərbaycanda insanlar inandılar ki, səfirliyi basan quldur edam ediləcək? İranda yalnız azadlıq carçıları, mən türkəm deyənlər edam edilir.

Sizcə, anası təhqir edildiyi üçün kütləvi tədbirdə, ictimaiyyət qarşısında bəsic generalına şillə vurmuş bir millət minlərlə, milyonlarla insanın varlığı təhqir olunduğu halda, o “şilləni” vurmayacaq? Məktəblərdə qız uşaqlarını döyüb təhqir etmiş məktəb direktoruna o şillədən vurulmayacaq? Məgər, Ərdəbildə qəhrəman Səriyyələr daha yoxdur? Seçicilər qarşısında insanların məsum baxışlarından sui-istifadə edərək məclis nümayəndəsi olmaq üçün yalan danışan, yalan vədlər verən, Urmiya gölünü su ilə doldurmağa söz verən siyasət alverçiləri də bu şilləni haqq edəcəklər. Burda, peyğəmbərin Bədr döyüşü qabağı dediyi “Sizinlə vuruşanlarla siz də vuruşun...” sözləri yerinə düşür.

Seçkiləri boykot etməyə çağıran siyasətçilər növbəti addım olaraq nəyi tövsiyə edirlər? Seçkidə iştirakdan imtina edən insanlar o məclisdə qəbul edilən qanunları da boykot edəcəklər. Deməli, növbəti addım kimi insanları kütləvi itaətsizliyə çağırmaq lazımdır. Şərəfsiz məktəb direktorlarına, ədalətsiz məhkəmə qərarlarına, polisin və bəsicilərin təzyiqlərinə, qoçuluqlarına cavab verilməlidir. Allahın köməkliyi ilə birinin evi yanmalı, biri damdan düşməli, biri də maşının altında qalmalıdır.

Çox dəyərli milli fəallarımız geniş xalq kütləsinə çatdırmalıdırlar ki, “Azadlıq, Ədalət, Milli Hökumət” şüarının bir bəndi belə mövcud siyasi quruluşda həyata keçirilə bilməz. Bu siyasi quruluşda nazir, baş nazir və hətta prezident olmaq hələ fikir sahibi olmaq deyil. İran deyilən ölkənin bir “fikir sahibi” var və o da dini rəhbərdir. Ona dini rəhbər deyilir ki, ancaq İslam dinini təmsil edib-etməməsi ciddi sual altındadır.

İranda prezident “səngək” çörəyinin səhmiyyəsini (kvotasını) müəyyən edə bilər. O da ona görədir ki, insanların qarnı doysun və şükür etsinlər. Məgər İraqda, Suriyada, Əfqanıstanda ölən, şikəst olan gənclərin taleyini nazir təyin edir? İranda

prezident büdcəyə əl ata bilər, böyük məbləğdə maliyyə qaçaqçılığı da edə bilər, qohum-əqrəbasına, dostlarına böyük gəlir mənbəyi yarada bilər, ancaq insanlara, xalqlara azadlıq verə bilməz. Bu baxımdan heç onların özləri də azad deyillər. Rəfsəncanidən başlayaraq İranın prezident və baş nazirləri indi hərəsi bir "dükan" sahibləridirlər. Onların dükan çərçivəsində hər hansı haqları var, oradan kənarda heçkimdirlər. Nəinki İran məclis seçkiləri, hətda prezident seçkiləri ölkənin xalqlarına heç nə verə bilməz. Bunu insanlara anlatmaq lazımdır. "Ədalətli şah" ümidi ilə milləti şairlərin şeirləri ilə aldatmayın. Biz Qacarı da görmüşük, xain Rza şahı da. Millətin geriliyinə səbəb olan da, milləti "pəncşəmbənin nöqtələrini" qoymağa məhkum edənlər də onlar idi. Molla rejimi o illərin cəhalətinin bəhrəsini yığır.

Milli fəallar insanlarımızı dünyəvi elmləri öyrətmək, bizi birləşdirən imkanlardan, ana dilindən, latın əlifbasından, milli musiqimizdən, milli qəhrəmanlarımızdan, bizi biz edən bütün dəyərlərdən bərk-bərk yapışmaq, dünya türk mədəniyyətinin vacib bir hissəsi olmağa hazırlamalıdır.

Milli fəallar insanlara anlatmalıdırlar ki, necə olur Şirin İbadi Nobel mükafatı alanda mən "Kroşun nəslindənəm" deyə bilir, Nərgiz Məhəmmədi mən Tomrisin nəslindənəm deyə bilmir. Nərgiz məgər türklüyündən utanır? Bəs onda Nərgiz kimdir? İranlıdır? Xaminədən çıxmış, Xaminəni bəyənməyən molla kimi. Əli Xamineyinin iftixar edə biləcəyi yeganə üstünlüyü Şeyx Məhəmməd Xiyabaninin nəslindən olmasıdır.Bunu tez-tez ona xatırladın.

Muğanlılardan bir soruşun, at belində bir əlində körpəsi, belində qılıncı olan elat qızı ləyaqətlidir, ya atasının hesabına Tehranlı olub, səhmiyyə ilə məclis nümayəndəsi seçilən. Burada Səməd Vurğunun "Muğan Muğan olsa biri üç eylər, Muğan tufan olsa, üçü heç eylər", - deməsi yerinə düşür.

Milli fəallar insanlara anlatmalıdırlar ki, Cəmkərəndan bizə çörək çıxmayacaq, Xorasandan, Qumdan bizə ədalət gəlməyəcək. Azərbaycanlı olaraq bizim Məşhədimiz Ərdəbil, Kərbəlamız Urmiyyə, Məkkəmiz də Təbrizdir. Yalnız bu düşüncə ilə " Azadlıq, Ədalət, Milli Hökumət" həyata keçə bilər.

O gün ki, uşaqları fars dilində danışmağa məcbur edən Ərdəbil məktəbinin direktorunun təsadüfən evi yanacaq, igid ogullara ölüm hökmü verən hakimin maşını təsadüfən qəzaya uğrayacaq, xalqına silah yönəltmiş bəsic zabitinin əzizləri təsadüfən maşın altında qalacaq, o zaman millət arzularına çatacaq, bir mərama, bir məqsədə,

azadlıq, ədalət və özünün milli məclisinə xidmət edəcək və əlbəttə ki, mütləq qalib də gələcəkdir!

**Pərviz Kazımi**